“Azərbaycan Beynəlxalq Bankı” ASC-nin
Müşahidə Şurası tərəfindən təsdiq edilmişdir.
Protokol № 2; Qərar № 21;
Tarix:02.03.2021-ci il

# “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin

# komplayns

# S İ Y A S Ə T İ

## Mündəricat


1. Ümumi müddəalar ........ 2
2. Əsas anlayışlar ........ 2
3. Siyasətin məqsədi ........ 3
4. Komplayns sisteminin prinsipləri ........ 3
5. Komplayns risklərinin növləri ........ 4
6. Maraqların toqquşmasının qarşısının alınması ........ 4
7. Komplayns sisteminin təşkili ........ 5
8. Yekun müddəalar ........ 6

## 1. Ümumi müddəalar

1.1. Bu Siyasət Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, ”Banklar haqqında” Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Mərkəzi Bankının və Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının normativ xarakterli aktlarına, “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin (bundan sonra – Bank) Nizamnaməsinə, Bazel Komitəsinin tövsiyə və prinsiplərinə və digər qabaqcıl təcrübələrə uyğun olaraq hazırlanmışdır və Bankda komplayns sisteminin əsas prinsiplərini, məqsədlərini və bu istiqamətdə həyata keçirilməsi zəruri olan tədbirləri müəyyən edir.

1.2. Bankın struktur bölmələri tərəfindən bankdaxili normativ sənədlərin hazırlanması və təsdiqlənməsi zamanı bu Siyasətin tələbləri nəzərə alınmalıdır.

## 2. Əsas anlayışlar

2.1. Bu Siyasətdə istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. **Komplayns** – Azərbaycan Respublikasının qanunvericiliyinə, o cümlədən maliyyə bazarları tənzimləyicisinin hüquqi aktlarına, bankdaxili normativ sənədlərə, habelə PL/TMM sahəsində Bank üçün məcburi xarakter daşıyan digər tələblərə riayət olunması;

2.1.2. **Komplayns mədəniyyəti** – Azərbaycan Respublikası qanunvericiliyinin normativ tələblərinə, Bankın daxili sənədlərinə, bank fəaliyyətinin işgüzar təcrübəsinə və korporativ etikasına riayət edilməsinin tərkib hissəsi;

2.1.3. **Komplayns sistemi** – Bankın idarəetmə orqanlarının, əməkdaşlarının və struktur bölmələrinin Azərbaycan Respublikasının qanunvericiliyində, habelə komplaynsla bağlı Bankın daxili sənədlərində müəyyən edilmiş məqsədlərinin həyata keçirilməsini təmin edən sistem;

2.1.4. **Komplayns risk** – Azərbaycan Respublikasının qanunvericiliyinə, o cümlədən maliyyə bazarları tənzimləyicisinin hüquqi aktlarına, bankdaxili normativ sənədlərə, habelə PL/TMM sahəsində Bank üçün məcburi xarakter daşıyan digər tələblərə riayət olunmaması nəticəsində yaranan hüquqi risk;

2.1.5. **Bankın rəhbərliyi** – Bankın Müşahidə Şurası, Audit Komitəsi və İdarə Heyətinin üzvləri;

2.1.6. **Bankın əməkdaşı** – Bankla fərdi qaydada yazılı əmək müqaviləsi bağlayaraq müvafiq iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxs, mülki hüquqi müqavilələr üzrə Bank üçün müəyyən işləri yerinə yetirən fiziki şəxs;

2.1.7. **Komplayns üzrə məsul struktur bölmə** – öz səlahiyyətləri daxilində komplayns, o cümlədənPL/TMM sahəsində fəaliyyəti həyata keçirən Bankın struktur bölməsi;

2.1.8. **PL/TMM** – cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə;

2.1.9. **FATCA** (“Foreign Account Tax Compliance Act”) – ABŞ-ın Xarici Hesablar üzrə Vergi Əməletməsi Aktı;

2.1.10. **CRS** (“Common Reporting Standart”) – vergi məqsədləri üçün maliyyə hesabları barədə məlumatların avtomatik mübadiləsinə dair İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (“OECD”) tərəfindən işlənib hazırlanmış Standart və onun Şərhləri.

2.2. Bu maddədə qeyd olunan anlayışlar yalnız bu Siyasətin məqsədləri üçün istifadə edilir.

2.3. Bu Siyasətdə istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının mövcud qanunvericilik aktları ilə müəyyənləşdirilmiş mənaları ifadə edir.

## 3. Siyasətin məqsədi

3.1. Bu Siyasət aşağıdakı (lakin bunlarla məhdudlaşmayan) məqsədləri özündə ehtiva edir:

3.1.1. Komplayns risklərinin müəyyənləşdirilməsi, konsolidasiya edilmiş əsasda təhlili və minimuma endirilməsi üçün tədbirlərin görülməsi;

3.1.2. Müstəqil komplayns sisteminin yaradılması və optimallaşdırılması;

3.1.3. Bankın səhmdarlarının maraqlarının qorunması məqsədilə Bankın şəffaf fəaliyyətinin həyata keçirilməsi;

3.1.4. Bankda dürüstlüyün, etik davranışın təşviq edilməsi və Bankın əməkdaşları tərəfindən normativ hüquqi aktlara, peşə standartlarına, etik davranışları tənzimləyən daxili qaydalara əməl olunması;

3.1.5. Bankın İdarə Heyətinə komplayns risklərinin effektiv idarə edilməsində dəstək göstərilməsi;

3.1.6. Bank əməkdaşlarının korrupsiya, maraqların toqquşması, o cümlədən digər hüquqazidd əməllərdə iştirakının qarşısının alınması;

3.1.7. Bankın işgüzar nüfuzunun qorunması, müxbir əlaqələrin və müştəri-Bank münasibətlərinin sağlamlaşdırılması.

## 4. Komplayns sisteminin prinsipləri

4.1. Bankda komplayns sisteminin səmərəli fəaliyyətini təmin edən əsas prinsiplər aşağıdakılardır:

4.1.1. Məsuliyyət – Ümumi nəzarət üçün Bankın Müşahidə Şurası komplayns risklərinin idarə edilməsi istiqamətində aktiv nəzarət tədbirlərini həyata keçirir, effektiv idarəetmə üçün Bankın İdarə Heyəti komplayns siyasətinin həyata keçirilməsi çərçivəsində daimi və effektiv komplayns funksiyasının yaradılmasını, komplayns siyasətinin Bankın əməkdaşlarının diqqətinə çatdırılmasını, ona əməl olunmasını təmin edir və Bankda komplayns riskinin idarə edilməsi barədə Müşahidə Şurasına hesabat verir.

4.1.2. Müstəqillik – Bankda komplayns risklərinin idarə edilməsini tənzimləyən və əlaqələndirən məsul struktur bölmə fəaliyyət göstərir.

4.1.3. Resursların adekvatlığı – Effektiv fəaliyyət üçün komplayns sistemi kifayət qədər resurslarla təmin edilir.

## 5. Komplayns risklərinin növləri

5.1. Bank fəaliyyətinin həyata keçirilməsi zamanı komplayns tələblərinə riayət olunmaması nəticəsində aşağıdakı risk növləri ilə üzləşir:

5.1.1. Hüquqi riski – hüquqi aktların, o cümlədən maliyyə bazarlarına nəzarət və vergi orqanlarının hüquqi aktlarının tələblərinin pozulması, tam, vaxtında və ya düzgün tətbiq edilməməsi, Bankın daxili qaydalarının qəbul edilməməsi, habelə Bankın daxili qaydalarında ziddiyyət və boşluqlar nəticəsində yaranan risk;

5.1.2. Etik davranış qaydalarının pozulması riski – bank əməkdaşlarının etik davranışlarını tənzimləyən daxili qaydalara riayət edilməməsi;

5.1.3. Sanksiyalar riski – hüquqi aktlara və ya müqavilə şərtlərinə riayət edilməməsi nəticəsində meydana çıxan sanksiyalar;

5.1.4. Nüfuz riski – bu risk Banka qarşı etimadın azalması və mənfi ictimai rəy nəticəsində yaranır.

5.2. Bank həmçinin yuxarıda qeyd edilən risklərin hər hansı birindən irəli gələn və ya hər hansı biri ilə nəticələnən əməliyyat risklərinin digər növləri ilə də üzləşə bilər.

## 6. Maraqların toqquşmasının qarşısının alınması

6.1. Bank əməkdaşları vəzifələrinin icrası prosesi zamanı maraqların hər hansı şəkildə toqquşmasına yol verməməli və maraqlar toqquşmasına qarşı mübarizəyə dair qəbul edilmiş bankdaxili qaydalara riayət etməlidirlər.

6.2. Bank əməkdaşaları öz işgüzar fəaliyyətləri ilə bağlı Bankın qərar vermə prosesində iştirak etdikdə, şəxsi mühakimələri əsasında üçüncü tərəflərə hər hansı üstünlük verməməli, yalnız Bankın və onun səhmdarlarının maraqlarına cavab verəcək formada fəaliyyət göstərməlidirlər.

## 7. Komplayns sisteminin təşkili

7.1. Bank rəhbərliyi bu Siyasətin prinsiplərinə sadiqliyini ifadə edir, komplaynsın yüksək prioritetini müəyyənləşdirir və aşağıdakılar üçün nəzarətin həyata keçirilməsinə cavabdehlik daşıyır:

7.1.1. Bankda komplayns sisteminin səmərəliliyi və davamlılığının olması;

7.1.2. Komplayns məsələlərinə dair Bankın daxili sənədləri ilə müəyyən edilmiş tələblərə Bankın əməkdaşları tərəfindən riayət olunması;

7.1.3. Pozuntular (uyğunsuzluqlar) halında öz səlahiyyətləri daxilində müvafiq tədbirlərin görülməsi.

7.2. Komplayns üzrə məsul struktur bölmənin funksiyaları aşağıdakılardır:

7.2.1. Bankın komplayns risklərinin monitorinqini, qiymətləndirilməsini və idarə edilməsini həyata keçirmək (zərurət yarandıqda Bankın aidiyyəti struktur bölmələri ilə birgə);

7.2.2. Azərbaycan Respublikasının qanunvericiliyi, Bankın daxili sənədləri və beynəlxalq təşkilatların tələb və standartlarına əsaslanan risklərin idarəetmə sisteminin effektiv tənzimlənməsinə və qurulmasına öz töhfəsini vermək.

7.3. Komplayns risklərinin effektiv idarə edilməsi üçün Bank aşağıdakıları (bununla məhdudlaşmayan) təmin edir:

7.3.1. Komplayns baxımından yeni və modifikasiya olunmuş Bank məhsullarını (xidmətlərini) və iş proseslərini təhlil etmək, onlar üzrə riskləri müəyyən etmək, habelə Bankın daxili sənədlərini qiymətləndirmək;

7.3.2. Bank əməkdaşlarına komplayns riskinin idarə edilməsi ilə bağlı məlumat vermək, təlim keçmək, həmçinin zərurət olduqda, Bankın struktur bölmələrinin rəhbərlərinə və İdarə Heyətinə tövsiyələr vermək;

7.3.3. Bankın əməkdaşları və rəhbərliyi tərəfindən Azərbaycan Respublikası qanunvericiliyi və Bankın daxili sənədlərinin tələblərinə riayət olunmasına nəzarət etmək;

7.3.4. Bankda movcud komplayns tələblərinin pozulma hallarını (və ya belə hərəkətlərə cəhd etmə) araşdırmaq və araşdırmaya Bankın digər struktur bölmələrini, habelə Bankın rəhbərliyinin icazəsi ilə kənar mütəxəssisləri cəlb etmək;

7.3.5. Komplayns riskini müəyyən etmək və komplayns riski ilə əlaqəli hadisələrin uçotunu aparmaq, onların baş vermə ehtimalını müəyyənləşdirmək və mümkün nəticələrini qiymətləndirmək;

7.3.6. Komplayns riskinin idarə edilməsinə, Bankın əməkdaşlarının və ya rəhbərliyinin maraqlar toqquşması hallarının müəyyən edilməsinə və bunların minimuma endirilməsinə yönəlmiş bankdaxili sənədləri hazırlamaq;

7.3.7. İstehlakçıların hüquqlarının qorunmasına nəzarət etmək məqsədilə Bankın struktur bölmələri və ya ayrı-ayrı əməkdaşları barədə müraciətlərin dinamikasını təhlil etmək;

7.3.8. Bank əməliyyatlarının təmin edilməsi üçün xidmətlərin göstərilməsi və ya müvafiq işlərin görülməsi məqsədilə Bankın bağladığı müqavilələrin tərəfləri olan hüquqi və fiziki şəxsləri komplayns riskləri baxımından təhlil etmək;

7.3.9. Bankda korrupsiyaya qarşı mübarizəyə dair tələblərə riayət olunmasına nəzarət etmək;

7.3.10. Bank işçiləri tərəfindən daxili qaydaların tələbləri ilə bağlı faktiki yol verilmiş və ya potensial pozuntular barədə və sui-istifadə hallarına dair qaynar xətt sistemini təşkil etmək;

7.3.11. Bankın müştəriləri tərəfindən PL/TMM sahəsində mövcud tələblərə əməl olunmasına nəzarət etmək;

7.3.12. Bankda FATCA və CRS ilə bağlı tələblər üzrə zəruri işləri həyata keçirmək.

## 8. Yekun müddəalar

8.1. Komplayns mədəniyyəti Bank fəaliyyətinin ayrılmaz hissəsi olaraq hər bir Bank əməkdaşının fəaliyyətində tətbiq olunur.

8.2. Bu Siyasətdə nəzərdə tutulmuş funksiyaların lazımi qaydada yerinə yetirilməsinə görə müvafiq struktur bölmələrin səlahiyyətli işçiləri məsuliyyət daşıyırlar.

8.3. Bu Siyasət Bankın Müşahidə Şurası tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir.

8.4. Bu Siyasətə hər hansı əlavə və dəyişikliklər Müşahidə Şurasının qərarı ilə aparıla bilər.

8.5. Siyasətin həyata keçirilməsini Bankın İdarə Heyəti təmin edir.